2018-ci ilin yanvar ayında ev təsərrüfatlarında sənaye məhsulu istehsalı, habelə hüquqi şəxs yaratmadan fiziki şəxs kimi sənaye sahəsində fəaliyyət göstərənlərin işi də nəzərə alınmaqla 89940 min manatlıq sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,8 faiz çoxdur. Sənaye istehsalının 96,2 faizi malların, 3,8 faizi isə xidmətlərin payına düşmüşdür.

Sənayenin dövlət sektorunda 3901,6 min manatlıq, qeyri-dövlət sektorunda 86038,4 min manatlıq məhsul istehsal edilmişdir.

2017-ci ildə muxtar respublikanın sənaye müəssisələrində 16235 nəfər işçi çalışmışdır ki, bu da 2016-cı illə müqayisədə 1,6 faiz çoxdur. Sənaye sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2016-cı ilə nisbətən 3 faiz artaraq 381,9 manat olmuşdur.